Füzuli BAYAT

EPİK ZAMAN VƏ MƏKAN PROBLEMİ (DƏDƏ QORQUD BOYLARI ƏSASINDA)

"Dədə Qorqud kitabı"nın poetikasında zaman-məkan birliyi /Baxtinin tə'birincə, xronotop/ təhkiyə şəklini, janrı və süjetkompozisiya strukturunu açmaqda mühüm rol oynayır. Zaman-məkan kontiniumu mətnin qurulmasında əsas funksional elementdir. Dədə Qorqud boylarındakı hər bir hadisə bu və ya digər məkanda /mifoloji-epik, özümüzünkü-özgə, fantastik-real/, bu və ya digər zamanda (mifik-epik, ümumi-konkret, retrospektiv-introspektiv, tarixə qədərki-tarixi) baş verir. Süjet bütün hallarda zaman-məkan kontiniumu üzərində təşəkkül tapır. Bir sözlə, dastanın xronotopu onun struktur kompozisiyasında quruculuq funksiyasını öz üzərinə götürmüş olur. Hətta bədii ədəbiyyatın strukturunda zaman təhlili ədəbiyyatın özünün strukturunu anlamağa kömək edir (Qureviç, 1978, s.113). Həm də mifopoetik ən'ənədə zaman-məkan kontiniumu sadəcə hadisələrin cərəyan etdiyi passiv fon deyil, qəhrəmanların aktiv şəkildə davranışını müəyyənləşdirən bir kateqoriyadır (Toporov, 1973, s.96).

Dədə Qorqud dastanları uzun formalaşma mərhələsi keçdiyindən, orada qapalı mifoloji zaman və məkanın spesifik əlamətləri ilə yanaşı, əsasən, epik zaman-məkan kontiniumu dominant mövqedədir. Epik zaman-məkan birliyi tarixi düzxətli, geri dönməz, real lokalizasiyaya malik tarixi zaman-məkan kontiniumu ilə xəyali aləm, ternar bölgülü dünya, geri dönərlilik, öz oxu ətrafında dövretmə kimi keyfiyyətlərə malik mifoloji xronotop kateqoriyası arasında orta bir mövqe tutur. Epik zaman-məkan anlayışı fəlsəfi zaman-məkan kateqoriyasından da fərqlənir (Fəlsəfi zaman-məkan kateqoriyası haqqında bax: Molçanov, 1977). Hər halda "Dədə Qorqud kitabı"nda zaman-məkan kontiniumu nə mifoloji, nə də tarixi gerçəklik parametrləri ilə çıxış edir. Belə olsaydı, bir çox amillər, məsələn, döyüş, onun aparılması, hadisələrin gedişi, bu hadisələrə hami ruhların müdaxiləsi, kafir-oğuz münasibətləri, xəstəlik, qocalma, ölmə və s. ya fiziki gerçəklik, ya da xəyali, uydurma kimi qavranılmalı idi. Epik hadisə olan Dədə Qorqud boylarında isə ozanın

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

məqsədi "ol zamanda" və "ol məkanda" (hətta bu məkan coğrafi toponimlərlə üst-üstə düşsə də) Qalın Oğuz bəylərinin yaşamını, bu dünyada gördükləri işləri, qəhrəmanlıqlarını, adət və ən'ənələrini ritual-mifoloji aktlarını gələcək nəsillərə mə'nəvi tarix, yaddaş kitabı kimi göstərməkdir.

Atlı oğuzların tarixi zaman, toponimlər, etnoslar haqqında verdiyi "mə'lumat" epikləşərək simvolik işarəli zaman-məkan kontiniumuna çevrilir. Bu baxımdan "Dədə Qorqud kitabı"nda tarixi fakt, onunla uyuşan yer adı axtarmaq doğru deyildir.*

Ümumiləşmiş tarixi zaman və məkan (məsələn, Göy Türk ordusunun tərkibində oğuzların batıya yürüşləri, IV-V yüzilliklərdə bayındırların Göyçə göllə Van gölü arasında məskunlaşaraq gürcü çarları ilə mübarizələri, IX əsrdə Sır-Dərya hövzəsində paytaxtı Yenqi-kənd olan Oğuz yabqu dövlətinin qurulması, Elxanilər dövründə oğuzçuluq hərəkatının yeni vüs'ət alması, Ağqoyunlu – Trabzon münasibətləri və s. və bunlarla bağlı coğrafi adlar) dastanda artıq (konkret tarix və coğrafiya kimi yox) bədii kateqoriya kimi çıxış edir.

Zaman-məkan kateqoriyasının epiklik dərəcəsini üzə çıxartmaq bilavasitə mətnin oxunuş və şərhindən asılıdır. Əslində "Dədə Qorqud kitabı"ndakı boyların oxunuşu mətnin məkan strukturunda müxtəlif aspektli şərh əməliyyatının aparılması deməkdir. Mətn məkanı şaquli və üfüqi şəkildə şərhə mə'ruz qala bilər. Mətnin oxunuşunda diaxroniya dominant rol oynadıqda məkan, eləcə də zaman anlayışı tarixi zaman və məkan müstəvisi üzərinə gətirilir. Şərh mətnin çölünə doğru yönəlir /Qeyd edək ki, "Dədə Qorqud kitabı" indiyə qədər əsasən, bu şəkildə şərh edilmişdir/. Diaxron oxuda /çölə doğru yönəlmiş şərh/ mətnin avtoxton poetik arxitektonikası pozulur.Sinxroniya /sinxron oxu / poetik

*Əlbəttə, müəllif sözünü çox sərt deyir. Təbii ki, bütün tarixi həqiqətlərin içində zaman və məkan da şərtiləşir. Ancaq bütövlükdə bugünkü ilə səsləşən tarixi coğrafiyanı şübhə altına almaq insafsızlıqdır. Bu fikir "Kitab"a yiyələnməyimizdə bir pessimizm yaradar. Bu, başqa şeydir ki, real tarixi və tarixi məkan əlavə, xəyali, rəmzi, hətta başqa məkanlardan gələn cizgilərlə dolğunlaşır və adi coğrafi məntəqədən epik anlayışa keçir. Bununla belə, "Kitab"ımızdakı məkan hər an öz tarixi reallığını düşüncəmizə təlqin edir; məsələn, Füzulidəki, Vaqifdəki Misir, Çin, Xütən... kimi mücərrəd obrazlar şəklində qavranmır. Sonrakı səhifələrdə müəllif öz fikrini daha obyektiv axarda ifadə edir – Red.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

məkanı və zamanı mətnin xarakterinə uyğun, həm də avtoxton, yaradıcılıq qanunauyğunluğuna uyarlı şəkildə, əsasən, iç elementləri açmaqla şərh edir. Poetikada başlıca şərt sinxron oxunun aparıcı olmasıdır. "Dədə Qorqud kitabı"nda zaman-məkan kontiniumu bu şərtlər daxilində araşdırılmalıdır.

Dədə Qorqud oğuznamələrində zamanın daxili görünüşü ilə zahiri təqdimi, eyni ilə məkanın daxili varlığı ilə xarici təsviri bir ahəngdarlıq təşkil edir. Zaman-məkan vəhdəti həm də zaman-məkan sonsuzluğu ilə xarakterizə olunur. Zaman kateqoriyasında epik hadisələrin və personajların uydurma və ya xəyalda mövcud olan (ancaq real coğrafi postulata söykənən) dünyada baş verməsi mətnin poetik strukturunda başlıca element kimi nəzərə çarpır. Bu halda mətndə iki zaman oxu müşahidə edilir:

1. Təsvir edilən hadisə və gerçəkliklər zamanı.
2. Mətndə onların köçürülməsi zamanı.

Daha konkret desək, "Dədə Qorqud kitabı"nda hadisələrin düzülmə və bu düzümün verilmə (yə'ni fabula-süjet) zamanı mövcuddur. Hər halda təhkiyə zamanı təsvir edilən zamandan fərqlidir. Başqa cür desək, təqdim edilən hadisələr zamanı təsvir olunan hadisələrin zamanı ilə adekvat ola bilməz. Həm də hər bir mətn kimi Dədə Qorqud boylarında da zamanın üçlü keyfiyyətə malik olduğu göz önündə tutulmalıdır. Bir tərəfdən təhkiyədə ozan yaşadığı, sakral dəyərlərin pozulmağa başladığı eniş zamanını hadisələrin cərəyan etdiyi ol zamana qarşı, yə'ni oğuzların qızıl dövrünə qarşı qoyursa, digər tərfdən ozanın zamanı da bugünkü zamana qarşı qoyulur. Deməli, indiki ilə keçmiş arasında ötürücü rolunu oynayan bir ozan zamanı mövcuddur. B.Putilov da, ümumiyyətlə epik əsərdə zamanın üç tipini göstərmişdir:

a) təhkiyə zamanı, yaxud epik zaman
b) süjet zamanı, yaxud hadisələr zamanı
s) epoxal zaman (Putilov, 1988, s.33) "Dədə Qorqud kitabı"nda təsvir olunan hadisələr zamanı təqdim edilən hadisələr zamanına nisbətdə retrospektivdir, yə'ni ol zaman təbii ki, ozanın zamanını qabaqlayır. Ancaq hər boyun sonunda Dədə Qorqudun "Axır-sonı arı imandan ayırmasun" (D-66,154) cümləsi ilə müşaiyət olunan xeyir-duası perspektiv zamanıdır.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

"Dədə Qorqud kitabı"nın zamanı retrospektivdir. Buna baxmayaraq onun alt qatında perspektiv zaman anlamı yatır. Ozan söylədiyi, təsvir etdiyi hadisələri retrospektiv planda verir. Təbii ki, məntiqi baxımdan ol zaman və məkan geriyə dönməzdir. Ancaq ozan hadisələri oğuzların gələcəyinə doğru yönəltdiyindən (çünki qövmün gələcəyindən qorxu hissi keçirir) perspektiv zaman (gələcək zaman) mətndə məntiqi olaraq "görünür". Boylar xronoloji ardıcıllıqla düzülmədiyindən hadisələr bir süjet zamanına tabe edilməmişdir. Buna baxmayaraq zaman fasiləsi yoxdur. Zamanın durması, zahiri statikliyi heç də süjet zamanının fasiləliyi deyildir. Hadisələr Oğuz makroməkanında baş verdiyindən başlanmış hadisə zamanı sona qədər davam etdirilir. Oğuz makroməkanı ayrı-ayrı mikroməkanlardan – Qazan xanın yurdu, Bayburanın eli, Banıçiçəyin yurdu, Alp Aruzun yaşayış yeri və s. təşkil olunmuşdur. Bu yurdlar makroməkanda eyni hüquqludurlar. Məkan bir bütövlük yaratdığı kimi zamanda da fasilə yoxdur. Hadisələr bir mikroməkandan digərinə keçir, zaman fasiləsizliyi yaranır. Ozan hadisələri qaldığı yerdən başlatmaqla zamanda arakəsmələri götürmüş olur.

"Dədə Qorqud kitabı"nda zaman və məkan münasibəti ozanın təhkiyə zamanında gerçəkləşir. Bu halda məkan süjet zamanının hərəkətində gah uzanır, gah da qısalır. Bu keyfiyyət məkanı zamandan asılı vəziyyətə salır. Digər tərəfdən zaman məkanın ölçü vahidi rolunda çıxış edir. Zamanla məkanın bu görünən əlaqəsi xronotop, yə'ni zaman-məkan əlamətlərinin birləşməsi şəklində özünü göstərir. (Baxtin 1972; Baxtin, 1986; Baxtin, 1990; Axundov, 1982 və s.) Bütövlükdə zamanın dinamikliyi məkanla bağlıdır. Bu hal zaman-məkan kontiniumunda bu iki anlayışı bir-birindən ayırmağa imkan verir. Məsələn, zamanın məkandan asılı olmasına misal olaraq oğuz ərənlərinin dustaqlığını, yuxularını, yaralanmalarını göstərmək olar. Məkanın dəyişməsi ilə hadisələr sür'ətlə irəliyə doğru gedir, qəhrəman passiv statusundan aktiv statusuna keçir və s. Deməli, epik zamanın statikliyi və dinamikliyi hadisələrin yerdəyişməsindən asılıdır. Hər halda zamanın dinamikliyi, yə'ni aktivləşməsi qəhrəmanın fəaliyyəti ilə başlayır. (Lixaçev,1987, s.516-517) Neklyudov qəhrəmanın statik və dinamik zaman-məkan kateqoriyasında vəziyyətini dörd qrupda cəmləşdirir:

1. İlk qəhrəmanlıq aktına qədər, qəhrəman məkanda hərəkətsizdir,

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

zamanda isə hərəkətdədir, yə'ni sür'ətlə böyüyür. ("Dədə Qorqud kitabı"nda Buğacın on beş yaşına qədərki durumu buna misal ola bilər).

2. İlk qəhrəmanlıq aktından sonra o, məkanda hərəkətdədir zamanda hərəkətsizdir, yə'ni yaş baxımından qəhrəman heç bir dəyişikliyə uğramır. (Məsələn, Beyrək ilk qəhrəmanlıqdan sonra, bir məkandan digərinə keçir, ov edir, Banıçiçəyin yurduna gəlir və s., ancaq gənc olaraq qalır).

3. Məkanda hərəkətsiz olan qəhrəman zamanda dəyişir, hərəkətdədir. (Beyrəyin ata-anasının yurdlarından çıxmamaları, ancaq ağlamaqdan gözlərinin kor olmaları, qocalmaları)

4. Qəhrəmanın uzaq məkana köçürülməsində reqressiv zaman keyfiyyətləri görünür, yə'ni qəhrəman cavanlaşa bilir, əvvəlki gücünü özünə qaytarır və s. (Bu hal "Dədə Qorqud kitabı"ndakı boylarda yoxdur) (Neklyudov, 1975, s.186-187). Gətirilən misallardan da göründüyü kimi, Neklyudovun sxemi Dədə Qorqud Oğuznamələri üçün bə'zi cəhətləri ilə tam şəkildə qəbul edilə bilər.

5. Dədə Qorqud mətni məkan, iç və çöl, mərkəz və periferiya, sakral və profan ikili qarşıdurması halındadır. Oğuzlar içdə, mərkəzdə və sakral məkanda yerləşiblər, əksinə, kafirlər çöldə, profan məkanda, periferiyalardadırlar. İç-çöl qarşıdurmasında birinci tərəf semiotik dəyərə malikdir, yə'ni haqq, ədalət, tarazlıq, nizam birinci tərəfdədir. Zaman hər iki məkanda eyni anda hərəkət etmir. Məkanın birində hərəkət dinamikdirsə, digərində statik vəziyyətdədir. Ozan xaotik hərəkətdən qaçmaq üçün zamanı diskret kəsiklərə bölmüşdür. Ancaq kafir məkanındakı statikliyin özündə də oğuz məkanı üçün bir qorxu hiss edilməkdədir. Hər anda kafir məkanı və zamanı aktivləşə bilər. Bu aktivləşməyə səbəb qəhrəmanların yerdəyişməsidir. Oğuz ərənlərinin başına nə gəlirsə periferiyalarda gəlir. Qəhrəman sanki sakral məkanda təhlükəsizdir. Bu təhlükəsizlik profan məkanda heçə enir, müqavimət qırılır. Qazılıq qoca Düzmürd qalasında Arşın oğlu Dirək təkura əsir düşür, onun qarşısında gücsüz qalır. (D-202; 203)

"Dədə Qorqud kitabı"nda təsvir edilən dünya təbii ki, epik dünyadır. Onu hidronimlərlə, oykonimlərlə, toponimlərlə qarışdırmaq olmaz. Oğuz eli coğrafi baxımdan bütün oxşar, yaxın cəhətləri real və eyni adlı coğrafi yerlərindən canlanan epik məkandır. Bu epik məkanın real və

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

eyni adlı coğrafi yerlərdən prinsipial fərqi var. Hər ikisini eyni hüquqlu hesab etmək, eyniləşdirmək, dastan informasiyasını onun daxili strukturunu, spesifikliyini, özünəməxsusluğunu nəzərə almamaq deməkdir. Paradoksal da olsa, epik yaradıcılıq üçün xarakterik olan zaman-məkan kontiniumu real dünya, fiziki zaman vahidi ilə bağlıdır və birinin o birinə keçməsi nəinki mümkündür, həm də dastanın başlıca özəlliyindən biridir. Dastanı ifa prosesində ozanın real dünyaya məxsus cizgiləri epik məkana gətirməsi, epik məkanı gerçək aləmin parametrləri ilə zənginləşdirməsi, həmçinin dinləyicilərin də təsəvvürlərində real məkan konturlarını epik məkanın hesabına genişlətməsi, bütövlükdə epik yaradıcılığa xas qanunauyğunluqdur. Buna baxmayaraq, epik məkan və zaman ən azından real dünya ilə ona görə eyni deyildir ki, bu dünya onu təsvir edən ozanın və dinləyicilərin yaşadıqları aləmdən və zamandan ayrı və uzaqdır və ikincilərdən müxtəlif epik distansiyalarla ayrılmışdır. Ozanın söhbət açdığı dünya oğuzların qəhrəmanlıqlarla dolu, simvolik mə'na kəsb etmiş gerçəkliklə uydurmanın, doğru ilə xəyali olanın, adi ilə fövqəladənin yanaşı olduğu bir aləmdir.

Hər halda Oğuz eli, onun sərhədləri bir qədər konkretliyə, reallığa malikdir. Ancaq kafir dünyası bütün coğrafi dəqiqliyi ilə Oğuz elinə yad və düşməndir. Həm də kafirlərin yaşadıqları yerin parametrləri bir-birinin eynidir, sanki vahid bir məkanın çoxvariantlı şəklidir. Belə bir zaman-məkan kontiniumunda oğuz qəhrəmanları taleyin, qədərin, qismətin əlində, Baxtinin dediyi kimi, "passiv deyillər" (Baxtin, 1986,142), zaman-məkan da qəhrəmanların üzərində sadəcə olaraq gözləmirlər, düşmənlə mübarizə aparırlar. Qazan xan quyuda da, kafirlərin təbirincə desək, onlara rahatlıq vermir. Deməli, qəhrəmanın kafir məkanında dustaq olması aktı kafirin qorxusu ilə müşayiət edilir. Həm də bu dustaqlıq oğuz ərənlərini aktivliyə səsləyir. Qəhrəmanların zamanda dəyişmələri, zamanın axarlığı, yaxud donuqluğu, məkanın kiçikliyi, yaxud böyüklüyü, məsafənin qısalığı, yaxud uzunluğu özü özlüyündə avtoxtondur. Bu avtoxtonluğun içində qəhrəman hadisələri dəyişməkdə, öz xeyrinə həll etməkdə sərbəstdir və bu anlamda zaman və məkan üzərində hakim deyildir. Oğuz ərənlərinin aktivliyi xronotopda bəlli bir missiya ilə hərəkət etmələrindədir. Bu missiya dünyanın nizamını qorumaq, kafirləri haqq dinə də'vət etmək, kilsələri

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yıxıb yerində məscid tikmək, tarazlığı bərpa etməkdir. Oğuzların qalaları dağıtmaları, hasarları yıxmaları da bununla bağlıdır. Oğuz dünya modelinin əsasında proses qabarıq görünür. Bu, oğuzların dünyanı qorumaq missiyasını öz üzərlərinə götürməsilə gerçəkləşir.

Epik şüur oğuz qəhrəmanlarının qarşısında ədalət, məqsəd, ideal, kamillik, təbiətlə harmonik əlaqə və s. kimi aktivlik tələb edən və oğuz zaman və məkanında gerçəkləşən funksiyalar qoyur. Bu mə'nada oğuz qəhrəmanlıq zamanı əski ədalət, həqiqət anlayışlarının hələ hakim olduğu mifoloji, qismən də epik zaman-məkan kontiniumudur. Boylarda oğuz qəhrəmanlarının təkbaşına çoxsaylı düşmən qoşununa üstün gəlməsi (məsələn, Qanturalı), ən vəhşi heyvanlardan da güclü göstərilməsi (Qanturalının buğadan, aslandan, buğradan qüvvətli olması), mifoloji varlığa qalib gəlməsi (Basatın Təpəgözü öldürməsi) və s. aktlar tarixi zaman və məkan anlayışının dastanda reallaşmadığını isbatlayır.

Epik zaman-məkan kontiniumu fərdi və kollektiv keyfiyyətlərə malikdir. "Dədə Qorqud kitabı"nda təsvir edilən oğuz cəmiyyəti bunu təsdiqləməkdədir. Oğuzların kafirlərlə döyüş səhnəsini göstərən anlar hamı üçün zamanın ümumi, məkanın isə bircinsli olduğunu bildirir. Bu tip kollektiv döyüş səhnələrində (məsələn, II, III,IV,XI boylar) zaman həm kafirlər, həm də oğuz ərənləri üçün sanki yığılmış, sür'ətlə irəliyə doğru gedən hadisələrlə doludur. Kollektiv döyüş səhnələrində məkan özünün kiçikliyi, darlığı ilə seçilir. O yalnız döyüşün getdiyi yerlə sınırlanmışdır. Ozanın obrazlı şəkildə dediyi: "Ol gün ciqərində olan ər yigitlər bəlürdi. Ol gün sapa yer gözətdi. Bir qiyamət savaş oldı, meydan dolı baş oldı. Qiyamətin bir güni oldı. Bəg nökərdən, nökər bəgdən ayrıldı" (D-152). Bu səhnədə zamanla məkan birləşərək mərdlə namərdi, bəylə nökəri seçir, çünki qiyamət başlamışdır. Bu esxatoloji zaman ozanın geriyə – minilliklərə, milyonilliklərə qayıdışıdır. Ozan ol zamanın döyüş səhnəsini göstərməklə retrospektiv zaman anlayışından istifadə edirsə, qiyaməti xatırlatmaqla perspektiv zamanı göstərir və məchul gələcəyi müsəlman oğuzlara bir daha təlqin edir. Kollektiv döyüş səhnələrinin təsvirində ozan klişelərindən istifadə etməklə zamanın eyni müstəvidə, eyni məkan daxilində cərəyan etdiyini göstərir.

Fərdilik ayrı-ayrı oğuz qəhrəmanlarının zaman-məkan yerləşməsində görünməkdədir. Fərdi döyüşlərdə zaman-məkan kontiniumu invariantın

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

variasiyaları tə'sirini bağışlamır. Məsələn, Basatın Təpəgözü öldürdüyü döyüş səhnəsi (VIII boy) mifoloji zaman və məkan müstəvisində baş verir və bu keyfiyyəti ilə Qanturalının (VI boy), bu axırıncı da Yegnəyin döyüşünü (VII boy) təsvir edən səhnədən zaman-məkan münasibətinə görə də fərqlənir.

Ümumilikdə obrazların təsviri dinamik planda verilmişdir. Məsələn, gözəllik sadəcə statik təqdim edilir. Klişeləşmiş (artıq statik zaman və məkan səciyyəsi almış) epitetlər, əsasən, ozanın informasiyasında, süjet axarında verilir. Selcan xanımın, Banıçiçəyin gözəlliyi konkret zaman və məkan daxilində reallaşır. Hətta Düzmürd qalasının təkuru Arşın oğlu Dirəkin təsvirində konkret bir səhnə ilə bağlanır. Bu anlamda "Dədə Qorqud kitabı"nda istər gözəlin, istərsə də igidin təsviri olsun, dinamik planda təqdim edilir.

"Dədə Qorqud kitabı"nda ol zaman sakral zamandır. Ol zamanda baş verən hadisələr vaxtının məkanı da adi yer deyildir. Bu məkan qəhrəmanlıqla dolu oğuz alplarının məkanıdır. Oğuz ərənlərinin hərəkətləri, davranışları, reaksiyaları ol zamanın, yə'ni orta çağ əxlaqının məqbul saydığı, qəbul etdiyi, qiymətləndirdiyi dəyərlərdir. Bu, təkcə oğuzların keçmişi deyil, obraz və predmetlərin, əşya və hadisələrin, münasibətlərin semiotik dəyər qazandığı epik zaman-məkan kontiniumudur.

Oğuzların idealizə edilməsi, tarazlığın keşikçiləri kimi göstərilməsi, əksinə, kafirlərin destruktiv mövqeyi, əxlaqi normaları, qəhrəmanlıq şərtlərini pozmaları ol zamanın başlıca keyfiyyətidir. Haqq, yucalardan yuca Allah oğuzların tərəfindədir. Ol zamanın oğuzları Tanrı dostları, haqq adamları, ədalət keşikçiləridir. Buna görə də görklü Tanrını öyməklə qırx ərin gücünə sahib olurlar, yüz qırx il ömür alırlar. Ol zamanın oğuzlarının alqışı alqış, qarğışı qarğışdır. Haqq təala yalnız oğuz ərlərinin və onların seçilmişi olan Dədə Qorqudun könlünə ilham edir. Oğuzların bu şəkildə idealizə edilməsi dastanın poetik arxitektonikasında əsas, vacib elementdir.

"Dədə Qorqud kitabı" mətninin "Rəsul-əleyhissəlam zamanına yaqın" (D-2) cümləsi ilə açılması ol zamanın və məkanın ozanın yaddaşında, şüurunda uğurlu, ideal, xeyirli, dəyərli olmasını tə'min edir. Bu tip başlanğıç, mətndə qalan zaman və məkan hadisələri /ozanın şüurunda həm də perspektiv zaman / üçün bir uğur mənbəyi, bir ideal cəmiyyət

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nümunəsidir. Ozan hadisələrə öz zamanında baxdığı üçün ol zamanın və məkanın əzəmətini, sakrallığını görə bilir. Dədə Qorqudun qaibdən xəbər verməsi də artıq mütləqləşən ol zaman-məkan kontiniumunda baş verir. Təbii ki, bu zamanın həm ozanın yaşadığı zamanla, həm də məkanla heç bir əlaqəsi yoxdur. Bu epik informasiya /yə"ni Dədə Qorqudun adından verilən dürlü-dürlü qaib xəbərləri/ yalnız "Dədə Qorqud kitabı" mətni üçün xarakterikdir. Çünki ol zamanın qəhrəmanlığı, əxlaqı ilə yanaşı, ol zamanın müdrikliyi, qövmün bilicisi olmaq da sakral ol zamanında və məkanında mövcuddur. Ondan kənarda nə qəhrəmanlıq, nə əxlaq, nə qaibdən xəbər vermək var.Mətnin bu qatında oğuz təfəkkürü, türk dünyagörüşü, İslam mədəniyyəti, müsəlman düşüncəsi üzərinə gətirilib və bu sintezdən dünyanı dərk etmənin oğuz modeli, oğuz fəlsəfəsi yaranmışdır.

"Dədə Qorqud kitabı" oğuznamələrindən göründüyü kimi, oğuzun ol zamanı mütləq keçmiş və ya yeganə uğurlu zaman deyildir. Qorqud Atanın ol zamanda da əvvəlki, başlanğıc, ilkin bir zaman-məkan kateqoriyasına daxil olan bəy ərənlərin yaşamından, qəhrəmanlıqlarından, əxlaqlarından, fütuhatlarından söhbət açması simvolik fəlsəfi anlamda başlanğıcın daha şöhrətli, daha uğurlu olduğunu isbat edir. Zaman dəyişsə də, oğuzlar babaların əmanətinin zaman-məkan parametrləri içində yaşarılığını sürdürürlər. Uğurun, qələbənin mənbəyi də məhz bu ilkinliyi yaşatmaqla, sakrallığı qorumaqla mümkündür. "Dədə Qorqud kitabı"nda bu başlanğıc zamanı göstərən bir çox epik klişelər var: bir gün ala sabah və s. Oğuz zamanının bir günlə, bir səhərlə başlaması birlərdən formalaşan sonsuzluğa işarədir.

Bir uğur mənbəyi olan ol zaman mütləq idealdır. Bu ideallıq səslərdə, hərəkətlərdə, davranışlarda, münasibətlərdə üzə çıxır. "Dədə Qorqud kitabı"nda səslər, sözlər, cümlələr elə bir şəkildə qurulmuşdur ki, onlardan birini dəyişmək, başqası ilə əvəz etmək epik əsərin strukturunun pozulması, epik dünyanın dağılmasına gətirib çıxarır. Sözlə predmet arasındakı bağlantı elə bir səviyyəyə çatdırılmışdır ki, bu asılılıq, ierarxiyalılıq zaman-məkan vəhdətində qavranılır, dəyər qazanır, emosional tə'sirə malik olur. Ol zamanın dilinin, üslubunun yarı konkret, yarı mücərrəd, yarı simvolik, yarı tarixi, yarı polisemantik, yarı monosemantik, yarı sakral, yarı profan, yarı şe'r, yarı nəsr olması oğuz

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dünyasının mütləq gerçəkliyi şəklində təzahür edir. Dilin bu şəkildə təzahürü ozanın ol zamana mütləq sakral zaman, oğuz dünyasına ideal cəmiyyət kimi baxmasında özünü göstərir.

Ozanın qorxusu oğuzların keçmişi deyil, gələcəyidir. Bu qorxunun məntiqi yekunu kimi Dədə Qorqud da "Gəlimlü-gedimlü dünya, Axır son ucu ölümlü dünya" (D-65; 154; 201 və s.) deyir. Sanki Dədə də dünyanın sonundan, oğuz ərənlərinin bir-bir ölüb gedəcəyindən, yerlərində kimsənin qalmayacağından, gələcəyin uğursuzluğundan qorxur və yom/yum verir, işi duaya, yalvarışa bağlayır. "Dədə Qorqud kitabı" boylarının bu şəkildə keçmişə üz tutması, cümlə konstruksiyalarında şühudi keçmiş zamanın işlədilməsi hər şeyin bir gün bitəcəyindən doğan qorxudur.

Keçmiş indi və ya gələcək deyildir, olmuşdur, bitmişdir. Bəlkə elə buna görə də o sakraldır. Təbii ki, keçmişdən, yə'ni sakral olandan başqa bir dillə, başqa bir üslubla danışmaq lazımdır. Bu ən'ənə türk yaradıcı tiplərinin hamısında: şamanda, ozanda, təkyə şairində, aşıqda, divan şairində görünməkdədir. Ancaq individual yaradıcılıqdan fərqli olaraq xalq ədəbiyyatı nümayəndələri zaman və məkandan asılı olaraq (mifoloji zaman-məkanda bir, epik zaman-məkanda bir başqa, nağıl zaman-məkanda isə bir başqa dil, üslub işlədir) üslublarını dəyişirlər. Nəvaidə, Füzulidə zaman və məkanın üsluba heç bir tə'siri olmur.

Epik zaman və məkanı göstərən hazır üslub, hazır klişelər mövcuddur. Sadəcə olaraq "Dədə Qorqud kitabı" dövlət dastanı kimi formalaşdığından emosionallıq, güclü pafos və cilalanmış üslub həm də zaman-məkan kontiniumu ilə bağlı formullara aiddir. Bu anlamda epik əsərlər nə qədər hazır üslubi ifadələrdən istifadə etsələr də, Dədə Qorqud mətni, digər Oğuznamələr kimi təkrarsızdır, epik əsərlər sistemində təkdir. Epik dil sistemi, o cümlədən zaman-məkan üslubu ilə bağlı hazır klişelər hər hansı bir dastanın yaranmasından əvvəl formalaşmışdır. Deməli, ümumi epik dil sistemi hazır material və vasitə rolu oynayır. "Dədə Qorqud kitabı" mətni yaranma, zaman və məkan birliyi baxımından spesifiklik göstərdiyindən təkrarlar təkrarsızlıq, ümumi olanlar xüsusi kimi çıxış edir. Zaman-məkan formulları da bu kateqoriyaya aiddir.

Dədə Qorqud oğuznamələrində dəqiq zaman anlayışı yoxdur. Ayrı-

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ayrı boylarda 40 gün, 7 gün, bir həftə, 16 il kimi "dəqiq" rəqəmlər göstərilsə də, bunlar epik zaman-məkan kontiniumunda sadəcə olaraq ümumi epik zamandan kəsilmiş, digər vaxt ölçüləri ilə əlaqəsi olmayan hissələrdir. Yuxarıda da dediyimiz kimi, zaman fasiləsizdir, ancaq diskret kəsiklərə bölünmüşdür. Qureviçin də fikrincə, epos zamanı şahmat saatının zamanıdır (Qureviç,1978, s.117). Həm də bu diskret zamanların bir-biri ilə eyni ölçülü olduğu da qəbul edilə bilməz. Bir məkanda on altı il, digər məkanda on altı günə, yaxud on altı aya bərabər ola bilər. Bu keyfiyyət dastan zamanını nağıl zamanına yaxınlaşdırır.

Təbii ki, zaman real, fiziki zamanla heç bir əlaqəsi olmayan boş vaxt tə'siri bağışlayır. Beyrəyin Banuçiçəyi ilk gördüyü günlə, onun həqiqi şəkildə gərdəyə girdiyi gün arasında keçən süjet zamanı sanki hadisələr məkanında dəyişiklik yaratmamışdır. Beyrəyin elçiliyə Dədə Qorqudu göndərməsi, toy üçün verilən başlıq, toy tədarükü, toy gecəsi bəyin kafir hücumuna mə'ruz qalması, Bayburt qalasındakı 16 illik dustaqlıq, kafir bəyinin qızının yardımı ilə əsirlikdən xilas olma, yalançı nişanlının toyuna gəlməsi, tanıma, ox atma səhnələri, nəhayət, yalançı rəqibin bağışlanması və evlənmə, qalaya hücum və s. Keçən zaman müddətində dəyişən yalnız Beyrəyin ata-anasıdır. Onlar ağlamaqdan gözlərini itirmişlər. Ancaq onlar da öz əvvəlki görkəmlərini bərpa edirlər. Bu reqressiv zaman yalnız bu səhnədə görünür. Demək, zaman irəliyə axdığı kimi, geri də dönə bilir. Qalan personajlar: Qalın oğuz bəyləri Beyrəyin on altı il əvvəl qoyub getdiyi kimidirlər. Ölən yox, qocalan yox, dəyişən yox. Zaman Oğuz elində donmuşdur, kafir məkanında isə sür'ətlə keçmişdir. Gecə ilə gündüz bir-birini əvəz etsə də, aylar keçsə də, fəsillər dəyişsə də epik zaman Oğuz elində heç nəyi dəyişməmişdir. Demək, vaxt boşuna keçmişdir. Oğuz elində dəyişən görüntüdür. Beyrəyin bacıları qara geyinmiş, ata-anası kor olmuşdur. Beyrəyin Oğuz elində mövqeyi dəyişməz qalmışdır. On altı il hissləri, mövqeyi laxlada bilməmişdir. Oğuz elinin Boğazca Fatması, Qısırca Yengəsi də dəyişməmişdir. Dədə Qorqud oğuznamələrində personajlar süjet xəttinə necə daxil ediliblərsə (qoca qoca kimi, cavan cavan kimi, yeniyetmə yeniyetmə kimi) elə də sona qədər qalırlar. Qəhrəmanların yaş həddi dəyişməsə də, daxili dəyişmə baş verir. Alp Aruz mətnə Oğuz elinin qəhrəmanı kimi daxil olur, ömrünü asi kimi başa vurur.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Zamanın bu şəkildə təzahürü, təbii ki, məkanla bağlıdır. Oğuz eli sakral məkandır. Məkanın digər ölçüləri kimi zaman da bu sakral məkanda hərəkət edir. Kafir məkanı isə qapalıdır. Qapalılıq təkrarlıqla, geri dönərliliklə, statik vəziyyətlə xarakterizə edilir. Oğuz ərənlərinin dəyişməməsi sakral zaman-məkan kontiniumu ilə bağlıdırsa, kafirlərin bir səhnədə ölüb, digərində dirilməsi qapalılıqla əlaqədardır.

Dədə Qorqud qəhrəmanlarının taleyində bə'zən anilik böyük rol oynayır. Kafirlər Qazan xanın yurdundan uzaqlaşmasından istifadə edərək onun evini yağmalayır, anasını, arvadını, oğlunu əsir aparırlar. Anilik bu zaman axarında həlledici rol oynayır. Zamanın qalan hissəsi isə istənilən qədər uzana bilər. Ancaq bu uzanma Oğuz məkanında heç bir dəyişikliyə səbəb olmadığından boş zaman adlanır. Boyların bir çoxunda süjet anilik və fürsətdən yararlanmaq üzərində qurulmuşdur. Məsələn, Xızırın Buğaca görünməsi (görünmə və ya yuxu motivi) süjetin dəyişməsinə şərait yaradır. Anilik, müqəddəslərin işə qarışması (Xızırın, Tanrının) zamanın başqa anlam qazanmasına səbəb olur.

Məkan Oğuzun şüurunda qısalığı və uzunluğu ilə xarakterizə edilən yerdir. Qazanın evini qurtarmaq üçün yola düşməsi ilə məkan uzanır. Qazan dağ keçir, dərə adlayır, çay keçir. Ozan hadisələrin dramatikliyini artırmaq üçün bu izləmə yolunu uzadır, hissi-psixoloji anları daha qabarıq verməyə çalışır. Ozan təsvir edilən hadisələrə müdaxilə etməklə istənilən anda məkanı uzadır, qısaldır. On altı il Bayburt qalasında dustaq olan Beyrəyi toya çatdırmaq üçün ozan həm zamanı, həm də məkanı Oğuz elinə köçürür. Bu tip köçürmə, yaxud yolun uzadılıb, qısaldılması eşq dastanları üçün daha xarakterikdir (məsələn, Qəribin üç aylıq yolu bir günə gəlməsi, təbii ki, Xızırın köməyi ilə və s.). Qısası zaman-məkan kontiniumu hadisələrin sadəcə olaraq elementi deyil, həm də abstrakt formal kompozisiya elementi kimi çıxış edir.

Epik əsər üçün səciyyəvi olan keçmişə müraciət, alplıq zamanına ekskursiya ozanın tarixi yaddaşı bərpa etmək, fütuhat ideologiyasını yaşamaq və dinləyicilərə yaşatmaq məqsədi güdür. Zamanın bu şəkildə qarşılaşdırılması etnosun keçdiyi tarixi yolun mənzərəsini cızmaqdır. Oğuzların ol zamanı məntiqi baxımdan "tarixiləşmişdir", ancaq silsiləvi-qapalı mifoloji zamanın keyfiyyətlərini də yaşadır. Epik zaman "Dədə Qorqud kitabı"nda həm qapalı silsiləvi mifoloji, həm də tarixi düzxətli

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

zamanın ölçü vahidlərini saxlamışdır. Tarixi xətli zamanın ölçü vahidi, heç şübhəsiz, nəsillərin sadalanmasıdır. Ulaş oğlu Qazan xan, Dirsə xan oğlu Buğac,Uşun qoca oğlu Səgrək,Qam Ğan oğlu xan Bayandır və s.informasiya /bir çox boyların adları məhz ata adı ilə başlayır: I, III, IV, V, VI, VII, IX, X/ tarixi və tarix- mifoloji şəcərə zamanı görünməkdədir.Buradan da hökmdar sülalələri şəcərəsinin verilməsinin vacibliyi aydın olur.Salnamələrdəki oğuz hökmdarlarının nəsil ağacının Oğuz xana, oradan da Türkə çatdırılması tarixi düzxətli zamanın Dədə Qorqud boylarında qalıntısıdır.

Tarixi düzxətli zaman epik zaman-məkan kontiniumunun başlıca cəhətlərindəndir.Belə bir tarixi xətli zamanda bir-biri ilə əlaqəsi olmayan qəhrəmanlar bir araya gətirilir, bir-biri ilə bağlanır.Məsələn, oğuzların cəddi olan Oğuz xanı görmüş Ulaş, XI yüzilliyin hadisələri ilə bağlanır,həm də Qazanın atası kimi təqdim edilir. Əfsanəvi Bayındır xan VII-VIII yüzilliklərdə yaşamış (Əbülqazi, əsərinə əsasən verilən tarix, Əbülqazi ,1992) Qorqudla, XI əsrdə yaşamış Qazan xanla eyni zaman və məkan müstəvisinə gətirilir. Epik dastan təbii ki, real yox, elə epik tarixdir. Buna görə də oğuz keçmişinin bütün bilinən və sevilən yarı tarixi, yarı əfsanəvi qəhrəmanları yaddaş zamanında birləşdirilmiş ol zamanın ərənləri kimi qurulmuşlar. Ozan üçün zaman minillikləri birləşdirən zaman olduğundan mətndə xronoloji ardıcıllıq, dəqiqlik, tarixilik deyil, diskret kəsiklərə ayrılmış, retrospektiv, reqressiv zaman keyfiyyətlərinə malik xronotop mə'na kəsb edir. Bu keyfiyyət epik əsərin strukturu, mifopoetik düşüncə tərzidir.

Məkan strukturunda üfüqi və şaquli qarşıdurmaların köməyi ilə oğuz mədəniyyətində etnik şüur ön plana keçir. Təbii ki, şaquli qavranmada əski türklərin dünyanı ierarxik sütunda görmələri başlıca rol oynamışdır, əksinə, üfüqi dərk etmədə dünyanın səthi modeli anlaşılır. Səthi strukturda oğuzların gündoğan (doğu), günbatar (batı), gecə (qaranlıq), gündüz(işıq), quzey, güney kimi cəhət və vaxt anlamları durur. Təbii ki, qəhrəmanların səthi modeldə bir cəhətdən digər cəhətə köçürülməsi eyni vaxtda zaman dəyişikliyi ilə də müşahidə edilir. Şərti olaraq Oğuz dünyasından kənardakı aləmi nağıl, təbiət dünyası adlandırsaq, qəhrəmanların köçürülməsinin keyfiyyət dəyişikliyi aydınlaşmış olar. Məsələn, Basat nağıl dünyasından real oğuz cəmiyyətinə gətirilməklə

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

keyfiyyət dəyişikliyinə uğrayır. Qorqud Atanın dili ilə "sən insansan, heyvanla mühasib olmağıl" (D-214) deyilir və Basat at basıb qan sümürən vəhşidən oğuz ərəninə çevrilir. Təpəgöz bu çevrilməyə üç dəfə mə'ruz qalır: təbiətdən cəmiyyətə, oradan da yenidən təbiətə keçir. Zaman-məkan dəyişməsi onun Oğuza düşmən münasibətini dəyişmir. Ozan üçün maraqlı olan Təpəgözün xaotik aləmi simvolizə etməsidir.

Dastanın poetik arxitektonikasında zaman-məkan kontiniumu mətnin spesifikliyini göstərən, epik yaradıcılığın qanunauyğunluğunu şərtləndirən başlıca elementdir.

ƏDƏBİYYAT

1. Ахундов М.Д. Концепции пространства и времени: истоки, эволюция, перспективы. М.,1982
2. Бахтин М.М. Вопросы литературы и эстетики: Исследования разных лет М., 1972
3. Бахтин М.М. Литературно-критические статьи. М.,1986
4. Бахтин М.М. Творчество Франсуа Рабле и народная культура средневековья и ренессанса, М.,1990
5. Гуревич А.Я. Пространственно-временной "континиум" "Песни о Нибелунгах". -Традиция в истории культуры. М., 1978
6. Гуревич А.Я. Категории средневековой культуры. М., 1984
7. Абулгазы. Шежереи Теракиме.Ашгабат, 1992
8. Kitabi-Dədə Qorqud. B.,1988
9. Лихачев Д.С. Избранные работы. Т.I, М., 1987
10. Молчанов Ю.Б. Четыре концепции времени в философии и физике. М.,1977
11. Неклюдов С.Ю. Статические и динамические начала в пространственно-временной организации повествовательного фольклора. - Типологические исследования по фольклору. М.,1975
12. Путилов Б.Н. Героический эпос и действительность. Л., 1987
13. Топоров В.Н. Поэтика Достоевского и архаичные схемы мифологического мышления. - Проблемы поэтики и истории литературы, Саранск, 1973.

Summary

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Fizuly BAYAT

THE PROBLEM OF EPIC TIME AND SPACE (ON THE BASIS OF BOIS (PIECES) OF THE BOOK OF DADA GORGUD).

Temporary–Spatial continium is the main functional element in the con–struction of the text. In all the cases, subject is to be mainly based to such element ofcourse.

In this connection temporay–spatial unity (Choronotome) plays a consid–erable role in throwing light on the narrational forms, with a plot of – Compositional structures of the "Book of Dada Gorgud".

In this article the author uhderlines the thought that existing in the archi–tectonics of the epos and being characteristic for the epic activity temporary–spatial continium is the index of the specificity of the text. And the "Book of Dada Gorgud" could save the unit of measure of the historical recti liner of the time in the capacity of the main peculiarity of the epic temporary Spatial Continium.

Резюме

Физули БАЯТ

ПРОБЛЕМА ЭПИЧЕСКОГО ВРЕМЕНИ И ПРОСТРАНСТВА (НА ОСНОВЕ БОЙЕВ ДЕДЕ ГОРГУД)

Временно–пространственный континиум является основным функциональным элементом в построении текста. Во всех случаях, именно на такой элемент опирается и сюжет.

В этом плане временно–пространственное единство (хронотом) играет существенную роль в раскрытии повествовательной формы, сюжетно–композиционной структуры "Книги Деде Горгуд".

В статье подчеркивается мысль, что присутствующий в архитектонике эпоса и характерный для эпического творчества временно–пространственный континиум является показателем специфичности текста. "Книга Деде Горгуд" сохранила единицы измерения исторического прямолинейного времени в качестве основной особенности эпического временно–пространственного континиума.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com